19 May Türkiyənin Qurtuluş Savaşı Günüdür

# Türklüyün zəfər yolu



**Hər il may ayının 19-da Türkiyədə Atatürkü anma, Gənclik və İdman bayramı təntənə ilə qeyd edilir. "Anıtkabir" kompleksi ziyarət olunur, Atatürkün xatirəsi ehtiramla anılır və İstiqlal Marşı oxunur.**

Hər bir xalqın taleyində və tarixində dönüş nöqtələri olur. Türk milləti tarixdə bir neçə qurtuluş mərhələsi yaşayıb. Hələ qədim Ərgənokon dastanında türkün qurtuluş arzusu, idealı əksini tapıb. 1919-cu ilin 19 mayı oldu. Sonradan Atatürk olacaq Qazi Mustafa Kamalın Samsundan gəmi ilə çıxışı türk tarixində ümidin, inamın işartısı, geridönməz yeni mərhələnin başlanğıcı olub.

Xatırladaq ki, Birinci Dünya müharibəsinin sonuna yaxın – 30 oktyabr 1918-ci il Mudros müqaviləsi Qərb imperializmi tərəfindən türk millətinə verilən ölüm hökmü idi. Mustafa Kamal o zaman belə dedi: "Millətin istiqlalını yenə də millətin əzm və qərarı qurtaracaqdır". Qurtuluş savaşı bu fəlsəfə ilə başlandı və zəfərlə nəticələndi.

"Azərbaycan Türk Ocağı" İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Akif Aşırlı həmin çətin, lakin şərəfli dövr barədə fikirlərini bizimlə bölüşdü:

– "Mudros müqaviləsinə əsasən, Türkiyə əraziləri İngiltərə, Fransa və Yunanıstan arasında bölünmüşdü. İstanbul ingilis əsgərləri ilə dolu idi. O zaman hakimiyyətdə olan İttihad və Tərəqqi partiyası iş başından çəkildi. Dövlətdə artıq başsızlıq yaranmışdı. Mustafa Kamal Paşa da ittihadçı kimi siyasi fəliyyətə başlamışdı. Lakin Qurtuluş savaşı ərəfəsində artıq onların arasında fikir ayrılığı var idi. Amma ittihadçılar gücləri çatan qədər Mustafa Kamal Paşa və silahdaşlarına kömək edirdilər. Onları Vətən idealı birləşdirirdi.

Təəssüf ki, o zaman Osmanlı sultanlığı Atatürkün ölümünə fitva vermişdi. Bu da, sözsüz ki, xalqın müəyyən hissəsini şübhəyə salmış, Mustafa Kamalla tam həmrəylik göstərməsinə mane olmuşdu. Bu zaman xarici işğala qarşı Mustafa Kamal müttəffiq axtarmağa başladı ki, o da Sovet Rusiyası oldu. Çünki o dövrdə İngiltərə hər iki qüvvəyə qarşı mübarizə aparırdı. Sözsüz ki, sovetlərin də marağı Türkiyənin bolşevikləşməsində idi. Həmin dövrdə dünya inqilabı nəzəriyyəsi gündəmdə idi. Bolşeviklər də bu işə Şərqdən başlamaq istəyirdilər. Mustafa Kamal Atatürkün böyüklüyü onda oldu ki, sovetlərin bu marağından istifadə etdi. O, cümhuriyyəti bolşevik ölkəsi qurmadı. Amma ən çətin dövrdə özünün hərəkatına dayaq tapa bildi.

Azərbaycan da o dövrdə çətin durumda idi. Buna baxmayaraq, Azərbaycan Cumhuriyyəti gizli şəkildə də olsa, Qurtuluş Savaşına yardım edirdi. Türkiyə İstiqlaliyyət müharibəsi Azərbaycan ictimaiyyətinin müxtəlif təbəqələrindən əhəmiyyətli və artan dəstək almışdı.

Sovet dövründə isə Nəriman Nərimanov Türkiyəyə yardımın başında dururdu. Onun Atatürkə "Paşam, qardaş qardaşa borc verməz, əl tutar" fikri bu gün də aktuallığını qoruyur.

Bəli, 1919-cu il mayın 19-da başlayan Türk Qurtuluş Savaşı Türkiyə Böyük Millət Məclisinin (TBMM) qurulması ilə özünün ən pik nöqtəsinə çatdı.Daha sonra Atatürkün rəhbərliyi ilə aparılan hərbi əməliyyatlar tam uğurla yekunlaşdı. TBMM 1923-cü ilin 29 oktyabrında Türkiyə Cümhuriyyətinin yaradıldığını elan etdi.

Dünya türkün qüdrətinə heyran qalmışdı. Hətta böyük hind siyasi lideri Mahatma Qandi kimi bir şəxsiyyət də bu mübarizədən ilham alaraq öz xalqının azadlığı uğrunda hərəkata başçılıq etmişdir.

Bu gün də Türkiyə Şərq üçün nümunə cümhuriyyət kimi rolunu davam etdirir.

***Ceyhun MİRZƏLİ,***
***Əli ƏLİYEV***
***XQ***